AzQAC Rəyasət Heyətinin

28dekabr 2013-cü il tarixli qərarı

ilə təsdiq olunmuşdur.

Protokol №02

Təsdiq edirəm:

AzQAC-nin prezidenti

N. Aslanov ________

Tarix: 08. 01. 2014.

# Azərbaycan Qızıl Aypara Cəmiyyəti

## MİQRASİYA SİYASƏTİ

2007-ci ildə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) 16-cı Baş Assambleyasının İdarəetmə Şurasına Beynəlxalq Federasiyanın Miqrasiya Siyasətinin hazırlanması üzrə təşəbbüsü nəzərdən keçirmək təklifi olmuşdur. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (Beynəlxalq Hərəkat) Nümayəndələr Şurası da bu qərarı alqışlayaraq Miqrasiya nəticəsində yaranan humanitar böhranın Beynəlxalq Hərəkat səviyyəsində qarşılanmasının vacibliyini qeyd etmişdir. 30-cu Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Konfransı (Beynəlxalq Konfrans) da beynəlxalq miqrasiya nəticəsində formalaşan beynəlxalq humanitar narahatlığı vurğulamışdır. Onun "Birlikdə Humanistlik Naminə" süarı da Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri tərəfindən kövrək qruplara aid olan miqrantlara humanitar yardım və onların hüquqi statusuna dəstək verilməsini nəzərdə tutmuşdur.

2009-cu ildə Beynəlxalq Federasiyanın Kenyanın paytaxtı Nayrobi şəhərində keçirilmiş 17-ci Baş Assambleyasında Miqrasiya Siyasəti təsdiqlənmişdir.

2011-ci ildə Beynəlxalq Konfransda Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və Azərbaycan Hökuməti (Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi) 2012-2015-ci illər üçün "Beynəlxalq Humanitar Hüququn ölkə ərazisində gücləndirilməsi" üzrə götürdüyü vədin (öhdəlik) 3-cü Qətnaməsin "Miqrasiya: girişin təmin edilməsi, ləyaqət, müxtəlifliyə hörmət və sosial müdaxilə" olmuşdur. Bunu nəzərə alaraq 2013-cü ildə AzQAC Beynəlxalq Federasiyanın Miqrasiya Siyasəti bazasında öz Miqrasiya Siyasətini hazırlamağı və Milli Cəmiyyətin növbəti Rəyasət Heyətinin görüşündə təsdiqləməyi qərara almışdır.

AzQAC-nin Miqrasiya şöbəsi və s. aidiyyatı olan şöbələri miqrantlarla həyata keçirdiyi fəaliyyətlərini Beynəlxalq Federasiyanın həmçinin AzQAC-nin Miqrasiya Siyasətinə uyğun şəkildə həyata keçirir.

## GİRİŞ

Beynəlxalq Federasiyanın təsdiqlənmiş Miqrasiya Siyasəti ümumilkidə bütün Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin miqrasiya sahəsində həyata keçirdikləri fəaliyyətləri tənzimləyən əsas sənəd hesab olunur. Beynəlxalq Federasiyanın Miqrasiya Siyasətindən bəhrələnərək hər bir Milli Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti öz ölkəsi çərçivəsində mövcud olan miqrasiya problemləri sahəsində fəaliyyətlərini mütəşəkkil şəkildə təşkil etmək üçün öz Miqrasiya siyasətini təsdiq edə bilər.

Miqrasiya sahəsində çalışan Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, o cümlədən Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC və ya Milli Cəmiyyət) miqrasiya üzrə fəaliyyətlərini fərdi qaydada və ya Beynəlxalq Federasiya və Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə birgə çalışmalar səviyyəsində qurmalıdır ki, miqrantlar öz səyahətinə başladığı andan sonadək onların humanitar narahatlığı və ehtiyacları ödənilmiş olsun.

AzQAC miqrasiya sahəsində Beynəlxalq Hərəkatla birgə çalışır ki, miqrantlara müdafiə və dəstək versin, onların hüquq və ləyaqətini qorusun, onlara imkanlar axtarışında köməklik etsin və onların cəmiyyətə daxil edilməsində həvəsləndirici rol oynayaraq miqrantlar və qəbul edən icma arasında inteqrasiyanı təşkil etsin.

AzQAC Beynəlxalq Hərəkatın Fundamental Prinsiplərinə və insanlıq prinsiplərinə uyğun şəkildə miqrantların diskriminasiyaya uğraması, qərəzlə üzləşməsi və s. kimi halların baş verməməsi üçün öz əməkdaşları, üzvləri və könüllülərini daim bu sahədə ayıq-sayıq olmağa hazırlamalıdır.

Miqrantlar könüllü və ya məcburi qaydada bu kateqoriyaya aid olan icmaya çevrilirlər. Bəzi miqrantlar pənah gətirdiyi yerlərdə lazımi səviyyədə qəbul olunaraq öz şəraitlərini normal şəkildə qursalar da bəziləri çətinliklərlə üzləşirlər (məhz bu kateqoriyaya aid olan miqrantlar Beynəlxalq Hərəkatın, o cümlədən AzQAC-nin diqqət mərkəzindədirlər). Bu şəxslər öz ailələri və ya icmaları ilə əlaqələrini itirə bilərlər, hamının bərabər olaraq istifadəsi üçün nəzrdə tutulan sağlamlıq və social sahə üzrə xidmətlərdən məhrum ola bilərlər, onlar insane qaçaqmalçılığının qurbanına çevrilə bilərlər, cinsi və ya əmək istismarına məcbur oluna bilərlər, öz miqrasiya proseslərinin bir hissəsi kimi azadlıqlarını itirərək həbsə atıla bilərlər. Bu kimi miqrantlar yenidən öz vətənlərinə qayıtdıqda riskli təqiblərlə üzləşə bilərlər. Miqrantlar mədəni və dil baryerləri, istisna olunma və hətta zorakılıqla da üzləşə bilərlər. Qadınlar və uşaqlar (xüsusilə də müşayiətsiz və

azlıqlara aid kateqoriyadan olanlar), travmalı şəxslər, fiziki və əqli cəhətdən əziyyət çəkən xəstələr, yaşlı insanlar daha böyük kövrək miqrant qrupuna daxil edilirlər.

Azərbaycan Respublikası Avropada ən böyük miqrant sayına (1 milyonadə qaçqın və məcburi köçkünlər və s. ölkələrdən gələn miqrantlar) malik olan ölkə olduğundan bu sahədə həm dövlət səviyyəsində, həm Beynəlxalq Təşkilatlar səviyyəsində, həm qeyri-hökumət təşkilatları səviyyəsində müvafiq təşəbbüslər, layihələr, proqramlar, fəaliyyətlər həyata keçirilir. Beynəlxalq Hərəkat, o cümlədən AzQAC da bu sahədə ənənəvi və s. şəkildə fəaliyyətlərini təşkil edir.

**AzQAC-NİN MİQRASİYA SİYASƏTİNİN PRİORİTETLƏRİ**

- Miqrantların əsas ehtiyaclarının (sığınacaqla təmin olunma, yeməklə təmin etmə, daşınma, zavallılığının azaldılması, müdafiə etmə, humanitar yardımın əl çatan səviyyədə olmasını təşkil etmə, əsas xidmətlərlə (səhiyyə, məişət və s.) təmin etmə, hüquq məsləhəti vermək və s.) ödənilməsini proqramlar şəklində və ya ənənəvi qaydada təşkil etmək;
- Qeyri-daimi miqrantların ölkəni tərk etmə istəyində üzləşdiyi problemlərə dair hüquq məsləhətini təşkil etmək;
- Miqrantların vəziyyətini öyrənmək məqsədilə qiymətləndirmə işini aparmaq və məlum olan problemlər üzrə xüsusi layihələr hazırlayıb təqdim etmək. Miqrantların vəziyyətinə dair toplanmış məlumatın məxfi şəkildə saxlanmasını təmin etmək;
- Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərdən köçürülmüş məcburi köçkün statuslu, həmçinin Ermənistan Respublikasından qovulmuş qaçqın statuslu insanların dövlət tərəfindən yerləşdirildiyi qəsəbələrdə onların daim diqqətdə saxlanılmasını təmin etmək;
- AzQAC miqrantlar və onları qəbul edən icmalar arasında normal, qərəzsiz münasibətlərin formalaşdırılması, qəbul edən icma tərəfindən diskriminasiyanın olmaması, bərabər hüquqlu birgə yaşayışın təmin olunması üzrə müvafiq humanitar layihələri təşkil edir, hər iki icmanı həvəsləndirir;
- AzQAC miqrantların pənah gətirdiyi icmalarda linqvistik baryerlərinin aradan qaldırılması üçün müvafiq təmənnasız dil kursları təşkil edir və imkan daxilində bu və digər sahələrdə miqrantların özlərini cəmiyyətə inteqrasiya olunması üçün işə cəlb edir;
- AzQAC miqrantlara hüquq məsləhətlərinin verilməsi üçün səylər göstərir, bu sahədə çalışan dövlət və qeyri-hökumət təşkilatları ilə, beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, miqrantların lazımi instansiyaya

yönəldilməsini təşkil edir, miqrantlara hüquq və tövsiyyə verən agentlik kimi fəaliyyət göstərir;

- Lazım gəldikdə yəni kütləvi səviyyədə miqrantların hüquqları pozulduqda, diskriminasiya və ayrıseçkilik qurbanına çevrildikdə AzQAC öz beynəlxalq neytrallıq mandatından istifadə edərək dövlətə və ictimaiyyətə bu neqativ halların aradan qaldırılması üçün çağırış elan edir;
- AzQAC bir növ kövrək qrup kimi qəbul edilən miqrantların vəkili qismində tanınır və çıxış edir. Bu işdə AzQAC zəif olarsa Beynəlxalq Hərəkatı bu məsələyə cəlb edir və birgə çağırışlar təşkil edir;
- AzQAC miqrantlarla həyata keçirdiyi fəaliyyətlərin efektiv olması üçün, ölkəyə gələn miqrantların vəziyyətinin tənzimlənməsi üzrə regionda fəaliyyət göstərən digər Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri ilə, həmçinin Beynəlxalq Federasiya və BQXK ilə birgə xüsusilə bu sahədə tərəfdaşlıq edərək əməliyyatlar reallaşdırır;
- AzQAC qayıdıb gələn miqrantlarla maraqlanır, onların social tərəfini qiymətləndirir və ehtiyac olduqda bu miqrantların cəmiyyətə yenidən adaptasiya və inteqrasiyası üzrə müvafiq proqramlar/layihələr işləyib hazırlayır;
- AzQAC müxtəlif donor təşkilatları ilə əməkdaşlıq edərək müntəzəm surətdə qaçqın və məcburi köçkün və s. aztəminatlı miqrant ailələrinə humanitar yardımlar təşkil edir;
- AzQAC həyat əhəmiyyətli müvafiq vacib infrastruktur layihələrini təşkil edir ki, insanlar bu kimi amillərin uzun müddət mövcud olması və həll olunmaması ucbatından daimi yaşadıqları əraziləri kütləvi surətdə tərk edərək miqranta çevrilməsinlər (önləyici tədbirlər);
- AzQAC münaqişə və təbii fəlakət riskli ərazilərdə simulyasiya təlimləri, treyninqlər, icmaların möhkəmləndirilməsi və s. konsepsiyalar çərçivəsində fəaliyyətlər həyata keçirir ki, insanlar kütləvi şəkildə miqrasiya qurbanlarına çevrildikdə öz üzərinə düşən vəzifəni, atacağı addımları, hüquqi statusunu bilsin (önləyici tədbirlər).